3. Rus musiqisinə dair metodik göstərişlər. Tərtib edən T.Hüseynova. Bakı, ADPU, 1985.
4. Konen İ. Pyotr İliç Çaykovski. Bakı,1962.
Rus dilində:
5. Асафьев Б. О музыке XX века. Ленинград, 1982.
6. Смирнова Э. Русская музыкальная литература. Издательство Музыка, Москва, 1981
7. Фрид Э.Русская музыкальная литература. Издательство Музыка, Ленинград, 1972.
**Saytoqraiya:**
www .musiqi-dünya.az

## ВОКАЛЬНОЕ ТВОРЧЕСТВО МОДЕСТА ПЕТРОВИЧА МУСОРГСКОГО И ИСПОЛЬЗОВАНИЕ ЕГО В УЧЕБНОМ ПРОЦЕССЕ

***Мамедова Рашида Гамлет кызы***

***Резюме***

Среди композиторов «Могучей кучки» Мусоргский был наиболее ярким выразителем в музыке революционно – демократических идей 60-х годов XIX века.

Мусоргский - композитор подлинно народный, посвятивший все свое творчество рассказу о жизни , горестях, беззаконий и социально –политических проблем. Вокальная музыка занимает основное место в творчестве Мусоргского.

## MODEST PETROVICH MUSORGSKI'S VOKAL CREATIVITY AND IT'S IN THE EDUCATION PROCESS

***Mammadova Rashida Hamlet***

***Summary***

Modest Petrovich Musorgski has brightly showed the revolutionary –democratic ideas of russian music in the II half of the 19 th century, Musorgski devoted his creativity to his own people's miserable life, lawlessness, social and political problems. Vocal music is the main place of Musorgsky`s creative work.

***Rəyçi: GDU-nun "Musiqi fənləri" kafedrasının müəllimi S.Məhərrəmova***
***Musiqi fənləri kafedrasının 11 mart 2021-ci il tarixli kafedra iclasının 09 saylı protokolu çıxarışı***
***Daxil olma tarixi 24 aprel 2021-ci il***

**UOT:781.**

## A.S. DARQOMIJSKİNİN NƏZƏRİ-ESTETİK PRİNSİPLƏRİ

***Nəbiyeva Leyla Məzahir qızı***
***Gəncə Dövlət Universiteti***
**nabiyeva. leyla@inbox.ru**

**Xülasə:** *Məqalə XIX əsrin rus musiqi mədəniyyətinin görkəmli nümayəndəsi Alekdandr Sergeyeviç Darqomıjskinin( 1813-1869) yaradıcılığının öyrənilməsinə həsr olunmuşdur.*

*A.S.Darqonmıjski rus musiqi sənətində yeni yollar açmış qüdrətli bəstəkarlardan biridir. Bəstəkar M.İ.Qlinkanın yaratdığı yolu ilə getmiş və onun əsas yaradıcılıq müvəffəqiyyətlərini mənimsəmişdir.*

*Darqomıjskinin dünyagörüşü, estetik və bədii zövqü XIX əsrin 30-40-cı illərində formalaşmışdı. Bu, rus mədəniyyətinin inkişafında böyük, müsbət dəyişiklilər baş verən dövr idi. Darqomıjskinin hələ ilk əsərlərində dövrün mütərəqqi ideyaları öz əksinin tapırdı. O, Risiyanın ən görkəmli yazıçı, rəssam və bətəkarları ilə bir sırada gedərək, musiqidə realizm istiqamətini bərqərar edib.*

*Rus klassik musiqisinin baniləri Qlinka və Darqomıjskinin sayəsində rus musiqisi ümumbəşəri səviyyəyə qalxmış və Avropa milli musiqi məktəbləri arasında bərabər hüquq qazanmışdır.*

**Açar sözlər**: bəstəkar, musiqi, yaradıcılıq, opera, fortepiano

**Ключевые слова**: композитор, музыка, творчество, опера, фортепиано

**Key words**: composer , music, creativity, opera, piano

A.S.Darqonmıjskinin yaradıcılıq yolundakı ilk uğurları rus musiqi klassikasının banisi M.İ.Qlinkanın sənəti ilə qırılmaz surətdə bağlı olmuşdur. Darqomıjskinin bütün yaradıcılıq yolu Puşkinin dühasının nuru ilə işıqlanmışdır. Bəstəkarın yaradıcılığın M.Y.Lermontov, N.A.Nekrasov, A.İ.Gertsen və digər tanınmış söz sahibləri də müsbət təsir göstərmişlər.

Darqomıjski sənət yollarında ilk addımlarını Qlinkanın "İvan Susanin" operasından və vokal lirikasından ilhamlanaraq atmışdır. Qlinkanın yaradıcılığı Darqomıjskidə opera yazmaq həvəsinin oyanmasına səbəb olur.

İctimai hadisələrə həssas olub müasir rus həyatına tənqidi münasibət bəsləyən Darqomıjski XIX əsrin 40-50 illərində rus ədəbiyyatında formalaşan "tənqidi realizm" yaradıcılıq təmayülünə böyük həvəslə qoşulmuş, öz yaradıcılığında sosial ədalətsizliyə etiraz motivlərini əks etdirmişdi.

Bəstəkarın bir sıra əsərlərində rus musiqisində gündəlik həyatdan götürülmüş səhnələr, sadə adamların ağır həyatı təmsil olunmuşdur. Bəstəkarın yaratdığı insan xarakterlərində sosial ədalətsizliyi ifşa ruhu aydın hiss olunur.

Darqomıjski yaradıcılığının (60-cı illərdə) əsərlərinin həm tematikasına, həm də estetik təmayülünə görə demokratik ədəbiyyata və incəsənətə qovuşurdu. Bəstəkarın həmin dövrə aid olan vokal əsərləri rus ədəbiyyatının demokratik məktəbinin mövqeyində duran "İskra", "Svistok" satirik jurnallarının ruhu ilə həmahəng səslənirdi. Həmin illərdə "iskraçı" şairlərin (B.S.Kuroçkinin və P.İ.Baynberqin) sözlərinə yazılmış ayrı-ayrı satirik mahnılarında Darqomıjski şeirlərin aktual, kəskin siyasi məzmununu, xüsusən mövcud quruluşa qarşı yönəldilmiş satirik əhval-ruhiyyəsini musiqidə ifadə etmişdi.

Musiqidə təsvirin konkret və səciyyəvi olmasında Darqomıjski ənənəvi ümumiləşdirilmiş musiqi təfəkkürü tərzindən uzaqlaşaraq, sosial məzmunlu fərdi xarakterlər yaratmaq məqsədi ilə, bu yolda orijinal tapıntılara, yeniliklərə nail olur. O, danışıq intonasiyalarına böyük əhəmiyyət verir, sözü musiqidə ardıcıl surətdə təcəssüm etdirməyə çalışırdı. Bəstəkarın fikrincə, söz təkcə poetik məzmun daşıyan məfhum və ya anlayış deyildir, həm də insanın daxili aləmini əks etdirən "canlı" intonasiyadır. Darqomıjski insan nitqinin tələffüzündə insan hissi və həyəcanlarının obyektiv, həqiqi, parlaq əksini görürdü. Odur ki, bəstəkar danışıq intonasiyalarının zənginliyini musiqi dilinə köçürməyə, musiqini nitq tələffüzünə yaxınlaşdırmağa çalışırdı. Darqomıjskinin novatorluğu hər şeydən əvvəl bundadır və məhz bu cəhətdən onu M.P.Musorqskinin sələfi hesab etmək olar [2.149].

Danışıq intonasiyasının musiqiyə tətbiqi məsələsinə Darqomıjski dərindən və hərtərəfli yanaşırdı. "Musiqili nitqi"ni vokal melodiyaya yaxınlaşdıran Darqomıjski melodik xəttin reçitativ deklamasiyalı quruluşuna nail olmuşdu. Onun əsərlərində istifadə olunan müxtəlif növlü reçitativlərin çoxcəhətliliyi və özünəməxsusluğu, səciyyəvi komik reçitativlər, məişət reçitativləri dinləyiciləri heyran edir. Yaradıcılıq axtarışının nəticəsi olan reçitativ üslubu bəstəkarın ömrünün axırlarına yaxın yazdığı bir sıra romanslarda və Puşkinin faciəsi əsasında bəstələdiyi "Daş qonaq" operasında özünü parlaq surətdə göstərir.

Görkəmnli rus musiqi tənqidçisi A.N.Serov Darqomıjskinin yaratdığı reçitativ üslubunu yüksək qiymətləndirir və belə hesab edirdi ki, "... məhz bu sənət gələcək rus dramatik musiqisinin coşğun inkişafına şərait yaradacaqdır" [8.10].

Görkəmli rus bəstəkarı P.İ.Çaykovski haqlı olaraq Darqomıjski yaradıcılığında vokal-dramatik ifadə vasitələrindən olan reçitativi belə giymətləndirilmişdir: "Heyrətamiz dərəcədə real və eyni zamanda incə, oxumaqlı reçitativ"[2.149].

Darqomıjski musiqisinin üslub xarakterinin müəyyən edilməsində yaradıcı intonasiya özəyinin böyük əhəmiyyəti vardı. Darqomıjski musiqisində intonasiya təməlinin milli təbiəti özünü aydın göstərir. İntonasiya materialının mühüm mənbəyini təşkil edən Qlinka yaradıcılığı Darqomıjskinin yetkin əsərlərində öz əksini tapmışdır.

Darqomıjskinin mirası böyük deyil, ancaq yeni mövzular, obrazlar, bədii prinsiplər təqdim etdi. Buna görə, əsərlərinin əhəmiyyəti, rus musiqisinin sonrakı inkişafı üçün çox böyük oldu. Darqomıjski böyük ideoloji sənət üçün çalışırdı. Musiqidə bəstəkar duyğusal təcrübələrin müxtəlif çalarlarını çatdırır. Hissi ümumi formalarda deyil, hisslərin yaranması və inkişafı prosesini göstərir. Darqomıjski müxtəlif xarakterlər yaradır. Mahnı formaları ilə birləşən nitq intonasiyaları yeni bir melodiya növü meydana gətirdi.

Dargomıjskinin yaradıcılıq tərzinin orijinallığını müəyyənləşdirir nitq və musiqi intonasiyalarının orijinal ərintisi. Məşhur aforizmdə Darqomıjski özünün yaradıcı kredosunu ifadə etmişdir: "İstəyirəm ki, səs birbaşa sözü ifadə etsin, həqiqəti istəyirəm." [ 10.].

Opera əsərləri sahəsində ilk adımlarından Darqomıjski dramatik süjetlərə, böyük şəxsi dramların nümayişinə meyl göstərmişdi. O, Viktor Hüqonun "Paris Notrdam kilsəsi" romanının süjeti əsasında "Esmeralda" operasını yazmış, əsər üzərində üç il (1838-1841) işləmişdi. "Esmeralda" operası yalnız 1847-ci ildə səhnəyə qoyulmuşdu. Bəstəkarın romantik dünyagörüşü 30-cu illərin geniş rus ziyalı kütlələrinin arzu və istəklərinə yaxın idi. "Esmeralda" operası güclü təsir bağışlayan yüksək romantik pafoslu, kəskin konfliktli operadır. Əsərdə Fransa romantik opera sənətinin – Meyerber tipli "böyük opera" janrının təsiri müəyyən dərəcədə hiss olunur. "Esmeralda" operasının əhəmiyyəti Darqomıjski yaradıcılığının çərçivəsindən kənara çıxmırdı. Bu əsər opera dramaturqu sayılan bəstəkarın yaradıcılıq axtarışlarının başlanğıcı hesab edilə bilər.

Darqomıjski 1867-ci ildə A. N. Serov tərəfindən nəşr olunan "Musiqi və Teatr" qəzetində nəşr edilmiş tərcümeyi-halında yazırdı:

"Esmeralda səkkiz il mənim çantamda yatdı. Bu səkkiz il boşa çıxan gözləntilər və ömrümün ən dözülməz illərində bütün sənət fəaliyyətimə ağır bir yük qoydu.... "[ 10.].

Bəstəkarın son operası olan "Daş qonaq" (1872) rus opera sənətinin inkişafında önəmli rol oynamışdır. "Daş qonaq" reçitativ operasıdır və buradakı reçitativlər son dərəcə ifadəli olması ilə seçilərək, sonrakı dövrdə yaşayıb- yaratmış rus bəstəkarlarının operalarına mühüm təsir göstərmişdir.

A.S. Darqomıjskinin musiqi-estetik görüşləri, bədii idealları rus musiqisi üçün də örnək olmuşdur. Görkəmli rus bəstəkarları Şostakoviç, Prokofyev, Sviridov, habelə bir çox milli musiqi məktəblərinin istedadlı nümayəndələri onların sənətindəki bədii nailiyyətləri, hər şeydən əvvəl ideyalılıq, humanizm, xəlqilik, realizm ənənələrini qavramış, yeni tərzdə inkişaf etdirmişlər.

Aleksandr Sergeyeviç Darqomıjskinin yaradıcılığı musiqi mədəniyyətinin sonrakı inkişafına qüvvətli təsir göstərmiş, bəstəkarın musiqi-estetik görüşləri, hər şeydən əvvəl ideyalılıq, humanizm xəlqilik, realizm ənənələri dünya musiqisi üçün dəyərli örnək olmuşdur.

### *Ədəbiyyat*

1. Rus musiqisinə dair metodik göstərişlər. Tərtib edən T.Hüseynova. Bakı, ADPU, 1985.
2. Hüseynova T.M. Rus musiqi tarixi (XIX əsrin birinci yarısı). Bakı, 1991.
3. Həsənova Ş. Musiqi tarixindən mühazirələr. II hissə. Bakı, 2012.

Rus dilində:

4. Левашова О.,Владышевская Т.,Кандинский А.История русской музыки. Т. I, Москва, 2013.
5. Медведева И. А.Александр Сергеевич Даргомыжский. Москва, 1989.
6. Орлов Е.М. Очерки о русских композиторах XIX начала XX века. Москва, 1982.
7. Пекелис М. С. Даргомыжский и его окружение. Т.I. Москва, 1966

8. Самоходкина Н.В. Оперный стиль А.С. Даргомыжского/ Учебное пособие./ Ростов на Дону. 2010.
Saytoqrafiya:
9. https://skudelnica.ru/az/former/kompozitor-aleksandr-dargomyzhskii-biografiya-tvorcheskoe-nasledie.html.
10.https://499c.ru/az/vse-proizvedeniya-dargomyzhskogo-kompozitor-a-s-dargomyzhskii-biografiya/.
11. https://aleksandra-med.ru/az/nuzhno-znat/osnovnye-proizvedeniya-dargomyzhskogo-obshchie-svedeniya-znachenie-kamennogo.html.

## ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКИЕ ПРИНЦИПЫ АЛЕКСАНДРА СЕРГЕЕВИЧА ДАРГОМЫЖСКОГО

***Набиева Лейла Мазахир кызы***

***Резюме***

Мировоззрение А.С.Даргомыжского, его музыкально-эстетические принципы формировались в 30-40 гг. XIX века. Это были годы нового направления в литературе, живописи, музыке, когда русская культура быстро развивалась, стремясь к периоду своего наивысшего расцвета. В его творчестве нашли свой отклик огромные изменения, происходившие в общественной, идейной, художественной областях России первой половины XIX века.

## ARTISTIC AND AESTHETIC PRINCIPLES ALEXANDR SERGEYEVICH DARGOMYZHSKY

***Nabiyeva Leyla Mazahir***

***Summary***

The worldview of A.S.Dargomyzhsky, his musical aesthetic principles were formed in the 30-40s. XIX century. These were the years of a new direction in literature, painting, music, when Russian culture was developing rapidly, striving for the period of its highest prosperity. In his work, the huge changes that took place in the social, ideological, and artistic areas of Russia in the first half of the 19th century found their response.

***Rəyçi: Sənətşünaslıq elmləri namizədi, dos. İ.Abdurəhmanova***
***GDU-nun "Musiqi fənləri" kafedrasının 11 mart 2021-cu il tarixli kafedra iclasının 09 saylı protokolu***
***Daxil olma tarixi 24 aprel 2021-ci il***

**UOT:781**

## L.V.BETHOVENİN YARADICILIQ İRSİNƏ BİR NƏZƏR

***Rəfibəyli Lalə Hakim qızı***
***Gəncə Dövlət Universiteti***
***rafibeylilalagmail.ru***

**Xülasə:** *Məqalədə Vyana klassik məktəbinin tanınmış nümayəndəsi bəstəkar Lüdviq Van Bethovenin (1770-1827) yaradıcılıq irsi araşdırılmışdır.*

*Lüdviq Van Bethovenin yaradıcılığını klassitsizimdən romantizmə keçid olaraq qiymətləndirirlər. Bəstəkarın yaradıcılığında hər iki sənət cərəyanının xüsusiyyətləri aydın görünür.*

*Bethoven yaradıcılığının səciyyəvi cəhətlərdən biri də janr müxtəlifliyidir. Bəstəkar yaradıcılığında - opera, balet, simfoniya, uvertüra, fortepiano ilə orkestr üçün konsert, skripka ilə orkestr üçün konsert, fortepiano, skripka, və violonçel ilə orkestr üçün üçqat konsert, xor əsərləri, skripka və fortepiano üçün sonata, violonçel və fortepiano üçün sonata, fortepiano üçün sonata və pyes, eləcə də mahnı kimi bütün janrlara müraciət etmişdir.*